# YAQUBUN MƏKTUBU

## GİRİŞ

*«Yaqubun Məktubu»* «millətlər arasına səpələnmiş on iki qəbiləyə» ünvanlanıb. Bu məktubda təcrübi təlimatlar və öyüd-nəsihətlər var. Müəllif məsihçi münasibətlərini və davranışını öyrətmək üçün məcazi mənada bir çox ifadələr işlədir. Yaqub məsihçi nöqteyi-nəzərindən bir çox mövzulara toxunur. O öz məktubunda var-dövlət, yoxsulluq, sınaqlar, yaxşı davranış, iman və əməllər, dilimizdəki sözlər, müdriklik, münaqişələr, qürur və itaətkarlıq, başqalarını mühakimə etmək, öyünmək, səbir və digər vacib mövzulardan yazır. Yaqubun məktubu məsihçilərə imanla bərabər əməlləri də tətbiq etməyi vurğulayır.

**Kitabın məzmunu:**

1:1-18 Sınaqlara dözmək
1:19-27 Eşitmək və icra etmək haqqında
2:1-13 Var-dövlət və yoxsulluq
2:14-26 İman və əməllər
3:1-12 Dil haqqında
3:13-18 Həqiqi müdriklik
4:1-17 Allaha tabe olmaq haqqında
5:1-6 Varlılara xəbərdarlıq
5:7-20 Səbir haqqında

1 *Allahın və Rəbb İsa Məsihin qulu mən Yaqub-
dan millətlər arasına səpələnmiş on iki qəbiləyə*

* **1:1** Mat. 13:55; Mark 6:3; Həv. 15:13; Qal. 1:19
* **1:1** On iki qəbiləyə – yəni imanlılara.

salam!

*Sınaqlara dözmək*

2 Ey qardaşlarım, müxtəlif sınaqlarla üzləşəndə
bunu böyük bir sevinc hesab edin. 3 Çünki
bilirsiniz ki, imanınızın sınaqdan keçməsi dözüm
yaradır. 4 Dözüm də öz əməlini kamil etsin ki,
siz yetkin və kamil adamlar olasınız, heç bir
çatışmazlığınız olmasın.

5 Əgər sizlərdən birinin müdrikliyi çatışmırsa, hər
kəsə səxavətlə və məzəmmət etmədən verən Allah-
dan diləsin və ona veriləcək. 6 Amma qoy heç
şübhə etmədən, imanla diləsin. Çünki şübhə edən
adam küləyin qaldırdığı və hərəkətə gətirdiyi dəniz
dalğasına bənzəyir. 7 Qoy belə adam düşünməsin
ki, Rəbdən bir şey alacaq. 8 O qərarsızdır, heç bir
yolunda sabit deyil.

9 *Qoy həqir qardaş öz ucalığı ilə fəxr etsin,
10 varlı qardaşsa öz həqirliyi ilə fəxr etsin, çünki
varlı insan otun çiçəyi kimi solub gedəcək.
11 Günəş çıxır, bərk isti olur və otu qurudur. Otun
çiçəyi tökülür və onun zahiri gözəlliyi itir. Varlı
adam da beləcə, işləyə-işləyə solacaq.

12 Sınağa dözən adam nə bəxtiyardır! Çünki
sınaqdan keçəndən sonra Rəbbin Onu sevənlərə vəd
etdiyi həyat tacını alacaq. 13 Sınağa düşəndə qoy
heç kim «Allah məni sınağa çəkir» deməsin. Çünki
Allah pisliklə sınağa çəkilmir və Özü də heç kimi
sınağa çəkmir. 14 Lakin hər kəs öz ehtirası ilə
aparılıb yoldan çıxarılaraq sınağa çəkilir. 15 Sonra
ehtiras boylu qalıb günah doğurur. Günah da
yetişəndə ölüm törədir.

---

* **1:9** Yeş. 40:6-7

16 Ey sevimli qardaşlarım, aldanmayın: 17 hər
yaxşı bəxşiş və hər kamil hədiyyə yuxarıdan,
Özündə heç bir dəyişiklik ya dönüklük kölgəsi ol-
mayan nurlar Atasından† gəlir. 18 O Öz iradəsinə
görə həqiqət kəlamı ilə doğulmağımıza səbəb oldu
ki, biz Onun yaratdıqlarının bir növ nübarı olaq.

### *Eşitmək və icra etmək*

19 Beləliklə, ey sevimli qardaşlarım, qoy hər bir
adam eşitməkdə cəld, söz söyləməkdə təmkinli və
qəzəblənməkdə də təmkinli olsun. 20 Çünki insanın
qəzəbi Allahın salehliyini hasil etmir. 21 Buna
görə də hər cür murdarlığı və dolub-daşan pisliyi
kənara ataraq ürəyinizə əkilən, canlarınızı xilas
etməyə qadir olan kəlamı həlimliklə qəbul edin.

22 Bu kəlamın icraçısı olun, yalnız eşidənlər
olub özünüzü aldatmayın. 23 Çünki kəlamı eşidən,
amma icraçısı olmayan şəxs güzgüdə öz üzünün
cizgilərinə baxan adama bənzəyir: 24 O öz-özünə
baxır, kənara çəkilir və dərhal necə olduğunu un-
udur. 25 Lakin kamil qanuna, azadlıq qanununa
diqqətlə baxıb ona bağlı qalan şəxs unutqan eşidən
deyil, əməldə icraçıdır; belə adam öz işində nə
bəxtiyardır!

26 Əgər sizdən biri özünün mömin olduğunu
düşünür, amma ürəyini aldadıb öz dilini
yüyənləmirsə, onun möminliyi puçdur. 27 Ata
Allahın hüzurunda pak və nöqsansız möminlik
budur: yetimlərə və dullara onların əziyyətlərində

---

† **1:17** Nurlar Atasından – yəni nur Olan və səma cisimlərini yaradan Ata Allahdan. Bax: Yar. 1:14-19; 1Yəh. 1:5.

qayğı göstərmək və özünü dünyadan qoruyub ləkəsiz olmaq.

# 2

1 Qardaşlarım, izzətli Rəbbimiz İsa Məsihə iman
edənlər olaraq insanlar arasında tərəfkeşlik
etməyin. 2 Məsələn, toplandığınız yerə qızıl
üzüklü, gözəl geyinmiş bir adamla eyni vaxtda
kasıb, nimdaş paltarlı adam da gələrsə, 3 gözəl
geyinmiş adama diqqət yetirib «buyurun, burada
əyləşin», kasıba da «sən orada dur» və yaxud
«yerdə otur» deyərsinizsə, 4 öz aranızda ayrı-seçkilik
edib pis fikirli hakimlər kimi davranmırsınızmı?
5 Ey sevimli qardaşlarım, dinləyin: Allah bu
dünyada kasıbları imanda zənginləşmək və Onu
sevənlərə vəd etdiyi Padşahlığın varisi olmaq
üçün seçmədimi? 6 Sizsə kasıbı hörmətdən
saldınız. Məgər sizi sıxışdıran varlılar deyilmi?
Sizi məhkəmələrə çəkən onlar deyilmi? 7 Sizin
məxsus olduğunuz Şəxsin şərəfli adına küfr edən
onlar deyilmi?

8 *Əgər siz «qonşunu özün kimi sev» deyən
Müqəddəs Yazıya görə Padşahınız Allahın
qanununa həqiqətən əməl edirsinizsə, yaxşı
edirsiniz. 9 Amma əgər insanlar arasında
tərəfkeşlik edirsinizsə, günah etmiş olursunuz
və Qanuna əsasən onu pozanlar kimi məhkum
olunursunuz. 10 Çünki kim Qanunun hamısına
riayət edərək birində büdrəyirsə, o bütün Qanuna
qarşı təqsirkar olur. 11 *Çünki «zina etmə» deyən,
«qətl etmə» də demişdir. Əgər zina etməyib qətl

* **2:8** Lev. 19:18 * **2:11** Çıx. 20:13-14; Qanun. 5:17-18

edirsənsə, sən Qanunu pozmuş olursan. 12 Azadlıq
qanunu ilə mühakimə olunacaq adamlar kimi
danışın və bu cür davranın. 13 Çünki mərhəmət
göstərməyən mərhəmətsiz mühakimə olunur.
Mərhəmət mühakiməyə qalib gəlir.

*İman və əməllər*

14 Qardaşlarım, əgər bir kimsə yaxşı əməlləri
olmadığı halda imanının olduğunu bildirirsə,
bunun xeyri nədir? Belə iman onu xilas edə
bilərmi? 15 Əgər qardaş-bacılardan birinin paltarı
və gündəlik yeməyi yoxdursa 16 və sizdən biri
ona «arxayın get, isin və qarnını doydur» deyib
onların yaşayışı üçün lazım olanları vermirsə, nə
faydası var? 17 İman da elədir, əgər yaxşı əməlləri
yoxdursa, özü-özlüyündə ölüdür.
18 Lakin kimsə belə deyə bilər: «Sənin imanın
var, mənim də əməllərim». Sən imanını mənə
əməlsiz göstər, mən də sənə imanımı əməllərimlə
göstərəcəyəm. 19 Sən Allahın bir olduğuna
inanırsansa, yaxşı edirsən. Cinlər də buna inanır
və əsirlər! 20 Ey ağılsız adam, əməlsiz imanın puç
olduğuna sübut istəyirsənmi? 21 *Atamız İbrahim
öz oğlu İshaqı qurbangahda Allaha təqdim edəndə
əməllərlə saleh sayılmadımı? 22 Görürsən, iman
onun əməlləri ilə birgə fəaliyyətdə idi və iman
əməllərlə tamamlanmışdır. 23 *Beləliklə, «İbrahim
Allaha iman etdi və bu ona salehlik sayıldı» deyən
Müqəddəs Yazı belə yerinə yetdi və İbrahim Allahın
dostu adlandırıldı. 24 Görürsünüz ki, insan yalnız

* **2:21** Yar. 22:1-14 * **2:23** Yar. 15:6; 2Saln. 20:7; Yeş. 41:8; Rom. 4:3,9; Qal. 3:6

imanla deyil, əməlləri ilə də saleh sayılır. 25 *Eyni
tərzdə məgər fahişə Raxav belə, qasidləri qəbul
edib başqa yolla geri göndərərək öz əməlləri ilə
saleh sayılmadımı? 26 Çünki ruhsuz bədən ölü
olduğu kimi əməlsiz iman da ölüdür.

# 3

*Dil haqqında*

1 Qardaşlarım, bildiyiniz kimi biz müəllimlər
daha ciddi bir mühakimədən keçəcəyik. Bu
səbəbə görə də çoxunuz müəllim olmayın. 2 Çünki
hamımız çox büdrəyirik. Sözləri ilə büdrəməyən bir
kimsə bütün bədəni də yüyənləyə bilən kamil bir
insandır. 3 Bizə itaət etsinlər deyə atların ağzına
yüyən taxırıq, beləcə bütün bədənlərini döndəririk.
4 Bax gəmilər də böyük olduqları və güclü küləklər
tərəfindən aparıldıqları halda sükançının könlü
haraya istəyirsə, kiçicik bir sükanla oraya dönür.
5 Dil də elədir, bədənin kiçik üzvüdür, amma çox
öyünür.

Baxın, balaca bir qığılcım böyük bir meşəni
yandırır! 6 Dil də oddur. Dil bədən üzvlərimizin
arasında haqsızlıq dünyasıdır. O bütün bədənimizi
ləkələyir və özü cəhənnəmdən odlandırıldığı kimi
həyatımızın gedişatını da odlandırır. 7 Çünki istər
heyvanların, istərsə də quşların, istər sürünənlərin,
istərsə də dəniz məxluqlarının hər cinsi insan
nəsli tərəfindən əhliləşdirilir və əhliləşdirilmişdir.
8 Amma dili heç bir insan əhliləşdirə bilmir. Dil
qarşısıalınmaz bəladır və öldürücü zəhərlə doludur.
9 *Dilimizlə Rəbb Ataya alqış edirik. Dilimizlə də

* **2:25** Yeşua 2:1-21 * **3:9** Yar. 1:26

Allahın surətində yaradılmış insanları lənətləyirik.
10 Alqış və lənət eyni ağızdan çıxır. Qardaşlarım, bu
belə olmamalıdır. 11 Bir bulağın eyni gözündən şirin
və acı su çıxarmı? 12 Qardaşlarım, əncir ağacı zeytun
və üzüm tənəyi də əncir yetişdirə bilərmi? Eləcə də
şor bulaqdan şirin su* gələ bilməz.

### *Həqiqi müdriklik*

13 Aranızda müdrik və dərrakəli olan varmı?
Qoy o öz yaxşı həyat tərzi ilə, müdriklikdən
yaranan həlimliklə yaxşı əməllərini göstərsin.
14 Amma ürəyinizdə acı qısqanclıq, xudbin ehtiras
varsa, öyünməyin və həqiqəti inkar etməyin.
15 Belə müdriklik yuxarıdan nazil olan müdriklik
deyil, ancaq dünyəvi, ruhani olmayan və şeytani
müdriklikdir. 16 Çünki harada qısqanclıq və xudbin
ehtiras varsa, orada qarışıqlıq və hər cür pis əməl
vardır. 17 Amma yuxarıdan nazil olan müdriklik
əvvəla safdır, sonra da sülhpərvərdir, mülayimdir,
itaətlidir, mərhəmət və xeyirli bəhrələrlə doludur,
qərəzsizdir, riyasızdır. 18 Sülh yaradanların əkdiyi
sülh toxumlarından salehlik bəhrəsi yetişir.

# 4

### *Allaha tabe olun*

1 Aranızda dava və çəkişmələrin kökü
haradandır? Bədənlərinizin üzvlərində mübarizə
edən ehtiraslarınızdan deyilmi? 2 Nə isə arzu
edib əldə etməyincə adam öldürürsünüz. Həsəd
aparırsınız, amma istədiyinizə nail olmayınca
çəkişib dava edirsiniz. Əldə edə bilmirsiniz, çünki

* **3:12** Şor bulaqdan şirin su – bəzi əlyazmalarda heç bir bulaqdan həm şor, həm də şirin su.

diləmirsiniz. 3 Diləyirsiniz, amma almırsınız,
çünki öz kefinizə sərf etmək üçün pis niyyətlə
diləyirsiniz. 4 Ey vəfasızlar, dünya ilə dostluğun
Allaha qarşı düşmənçilik olduğunu bilmirsinizmi?
Buna görə də dünya ilə dost olmaq istəyən özünü
Allaha düşmən edər. 5 Bəlkə güman edirsiniz ki,
Müqəddəs Yazı əbəs yerə

«Allahın daxilimizə verdiyi* ruh qısqanclıqla
həsrət çəkər»

deyir? 6 *Lakin Allah daha çox lütf verir. Bunun
üçün belə deyilir:

«Allah məğrurlara qarşıdır,

İtaətkarlara isə lütf göstərər».

7 Buna görə də Allaha tabe olun. İblisə qarşı durun
və o sizdən qaçacaq. 8 Allaha yaxınlaşın, O da
sizə yaxınlaşacaq. Ey günahkarlar, əllərinizi pak-
layın! Ey qərarsız insanlar, ürəklərinizi saflaşdırın!
9 Kədərlənin, yas tutun, ağlayın! Qoy gülüşünüz
yasa, sevinciniz də qəmə dönsün! 10 Rəbbin önündə
özünüzü aşağı tutun, O da sizi ucaldacaq.

11 Qardaşlar, bir-birinizi pisləməyin. Qardaşını
pisləyən yaxud qardaşını mühakimə edən kəs Qa-
nunu pisləyir və Qanunu mühakimə edir. Amma
sən Qanunu mühakimə edirsənsə, Qanunun icraçısı
deyil, onun hakimisən. 12 Qanunverən və Hakim
birdir, xilas etməyə və həlak etməyə qadir olan
Odur. Bəs sən kimsən ki, qonşunu mühakimə
edirsən?

13 *İndi siz belə deyirsiniz: «Bu gün yaxud sabah
biz filan şəhərə gedib orada bir il qalacağıq və

---

* **4:5** Allahın daxilimizə verdiyi – bəzi əlyazmalarda Daxilimizdə qalan. * **4:6** Sül. 3:34 * **4:13** Sül. 27:1

ticarətlə məşğul olub pul qazanacağıq». 14 Əslində
isə sabah nə baş verəcəyini bilmirsiniz. Axı
həyatınız nədir ki? Qısa bir müddətə görünüb sonra
da yox olan buxardır. 15 Bunun əvəzinə «əgər Rəbb
istəyərsə, sağ qalarıq, bu və ya digər işi görərik»
deməlisiniz. 16 İndi isə siz öz təkəbbürlü olmağınızla
öyünürsünüz. Bu cür öyünmələrin hamısı pisdir.
17 Deməli, kimsə bir yaxşı işi görməli olduğunu bilib
onu etmirsə, günah edir.

# 5

*Varlılara xəbərdarlıq*

1 İndi isə, ey varlılar, başınıza gələcək kədərli
hadisələrə görə fəryad edib ağlayın! 2 *Var-
dövlətiniz çürüyüb, paltarlarınızı da güvə yeyib.
3 Qızıl-gümüşünüz paslanıb. Onların pası sizə
qarşı şahidlik edəcək və ətinizi od kimi yandırıb-
yaxacaq. Bu axır zamanda var-dövlət yığmısınız.
4 *Bax zəmilərinizi biçən işçilərdən hiyləgərcəsinə
gizlətdiyiniz əmək haqqı sizə qarşı haray çəkir.
Biçinçilərin fəryadı Ordular Rəbbinin qulaqlarına
çatıb! 5 Siz yer üzündə firavan yaşayıb kef
çəkmisiniz. Boğazlanma günündə də özünüzü
kökəldirsiniz! 6 Sizə müqavimət göstərməyən salehi
məhkum edib öldürdünüz.

*Səbirli olun*

7 Beləliklə, ey qardaşlar, Rəbbin zühuruna qədər
səbirli olun. Görün əkinçi birinci və axırıncı
yağış yağanacan səbir edərək torpağın qiymətli
məhsulunu gözləyir. 8 Siz də səbirli və ürəkli

* **5:2** Mat. 6:19 * **5:4** Qanun. 24:14-15

olun, çünki Rəbbin zühuru yaxındır. 9 Qardaşlar,
mühakimə olunmamaq üçün bir-birinizdən
gileylənməyin. Budur, Hakim qapı arxasında
durur! 10 Qardaşlar, Rəbbin adı ilə danışmış
peyğəmbərləri əzablara tab gətirmək və səbir
nümunəsi kimi götürün. 11 *Budur, biz dözümlü
olanları bəxtiyar hesab edirik. Əyyubun dözümü
barəsində eşitmisiniz və Rəbbin axırda nə etdiyini də
gördünüz, çünki Rəbb çox rəhmli və mərhəmətlidir.
12 *Lakin hər şeydən əvvəl, qardaşlarım, nə göyə,
nə yerə, nə də başqa bir şeyə and için. Qoy sizdə
«bəli»niz bəli, «xeyr»iniz xeyr olsun ki, mühakiməyə
düşməyəsiniz.
13 Aranızda əzab çəkən varmı? Qoy dua etsin.
Şadlanan varmı? Qoy ilahi oxusun. 14 *Aranızda
xəstə olan varmı? Qoy imanlılar cəmiyyətinin
ağsaqqallarını çağırtdırsın. Onlar da Rəbbin adına
onu yağla məsh edərək dua etsinlər. 15 İmanla
edilən dua xəstəni sağaldacaq və Rəbb onu ayağa
qaldıracaq. Əgər o adam günah edibsə, bağışlanacaq.
16 Beləliklə, günahlarınızı bir-birinizə etiraf edin və
bir-biriniz üçün dua edin ki, sağalasınız. Saleh
adamın duası çox güclü və təsirlidir. 17 *İlyas
təbiətcə bizim kimi bir adam idi və o səylə dua
etdi ki, yağış olmasın. Üç il altı ay torpağa yağış
yağmadı. 18 *O yenə də dua etdi və göy yağış
yağdırdı, torpaq da barını verdi.
19 *Qardaşlarım, əgər aranızdan biri haqq yol-

* **5:11** Əyy. 1:20-22; 2:10; Zəb. 103:8 * **5:12** Mat. 5:34-37 * **5:14** Mark 6:13 * **5:17** 1Pad. 17:1; 18:1 * **5:18** 1Pad. 18:41-45 * **5:19** Sül. 10:12; 1Pet. 4:8

undan azar və kimsə onu doğru yola qaytararsa,
20 qoy bilsin ki, günahkarı azdığı yolundan qay-
taran onun canını ölümdən xilas edər və bir çox
günahın üstünü örtər.

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http:// creativecommons.org/ licenses/ by-nc-nd/ 3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.
You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:
You must give Attribution to the work.
You do not sell this work for a profit.
You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.
Permissions beyond the scope of this license may be available if you contact us with your request.
This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.
You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:
You include the above copyright and source information.
You do not sell this work for a profit.
You do not change any of the words or punctuation of the Scriptures.
Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

---

PDF generated using Haiola and XeLaTeX on 11 Nov 2022 from source files dated 9 Oct 2020
5d1dd449-0589-5c75-ab0e-6b96786f2985